

# SALNAMƏ DAVAM EDİR

**Yazıçı-publisist Ələkbər Zahidovun Neftçala şəhərində keçirilən 65 illik yubileyi və "Müstəqillik yollarında" kitabının təqdimatından qeydlər**

Mənə elə gəlir ki, cəmiyyətin inkişafı, həyatın tərəqqisi daim hərəkətdə olan, yorğunluq bilməyən sonsuz zəhməti ilə həyata yeni rənglər qatan insanlardan çox asılıdır.

Mənəvi-psixoloji rahatsızlıq hardasa, həm də özünü cəmiyyət üçün çalışmağa borclu bilməklə daha çox bağlıdır. Təbiət etibarilə özünü cəmiyyətin mənəvi həyatına borclu bilən ziyalılardan biri də bu günlərdə 65 illik yubileyi qeyd olunan yazıçı-publisist Ələkbər Zahidovdur.

Xalq şairi Sabir Rüstəmxanlı Neftçalanı Azərbaycanın unikal guşələrindən biri hesab edir. Və mən də düşünürəm ki, bu unikal guşədəki unikal adamlardan biri də elə Ələkbər müəllimdir. Ərazilər, yerlər, yurdlar tarixi cəhətdən çox böyük əhəmiyyət kəsb edə bilər. Təbiəti ilə insanı valeh edər. Amma, hər bir ərazinin, yerin-yurdun adını, ünvanını şöhrətləndirən insanlardır.

Qədirbilən insanların arasında yaşamaq hər kəsə böyük fərəh bəxş edir. Ələkbər Zahidov bütün ömrünü Neftçalada yaşayıb. Tanıdığım bir neçə il ərzində müşahidəmə əsasən deyərdim ki, o, həyatın ritmi ilə həmahəng yaşayır. Gördüyü, şahidi olduğu hər hansı bir hadisəni - cəmiyyətdə, xalqın mənəvi həyatında müəyyən əks-səda doğuracaq əhvalatı nəzərdən qaçırmır, ona ictimai məzmun verir və yazıya gətirir.

"Müstəqillik yollarında" kitabı ilə azadlıq uğrunda mübarizə tariximizin salnaməsini birinci növbədə, o, ziyalı missiyası ilə yaradıb. Bu kitabda elə tarixi məqamlar var ki, günümüzün fonunda kiməsə onu yazmaq çətin görünə bilərdi. Amma Ələkbər Zahidov üçün kitabının obyektivliyini təmin edən vicdan amilidir. O, ən ədalətli hakimə - vicdana tapınaraq hadisələri yazıya gətirməkdən qorxmayıb, çəkinməyib.

Ələkbər Zahidovun mənsub olduğu xalqa sonsuz sevgisi var. Mühitində böyüdüyü vətənə ruhən bağlıdır. Ən başlıcası, onun insanlara sevgisi tükənməz bir enerji ilə çağlayır.

Dedim ki, "Müstəqillik yollarında" kitabının əsas məziyyəti onun yurda sevgi dərsliyi olmasıdır. Neftçalanın təbii gözəlliklərini, bozqır, şoran torpaqlarını Ələkbər Zahidov sevgi ilə elə tərənnüm edir ki, onun qəhrəmanlarının cəsarət, zənginlik mənbəyini də elə bu yerlərlə bağlılığında axtarmalı oluruq. Başqa sözlə, Neftçalaya, onun insanlarına Ələkbər Zahidovun gözləriylə baxmaq bəs edər ki, bunların nə qədər doğru, əsaslı olduğunu başa düşəsən.

***(Davamı 16-cı səhifədə)***

Kredo 2019.- 4 dekabr.- S.1;16

KRED

№50 (975) 04 dekabr 2019-cu il

# SALNAMƏ DAVAM EDİR

## Yazıçı-publisist Ələkbər Zahidovun Neftçala şəhərində keçirilən 65 illik yubileyi və “Müstəqillik yollarında” kitabının təqdimatından qeydlər



*(Əvvəli 1-ci səhifədə)*

Onu camaat çox sevir, xətrini əziz tuturlar. Çünki, onun özü insanlara sevgili münasibər bəsləyir. Hər kəslə öz halına, təbinə uyğun danışmağı bacarır. Adama elə gəlir ki, Ələkbər Neftçala rayonunun bütün sakinlərini bir-bir, ad-ad tanıyır. Kimin həyatında xoş bir gün varsa, Ələkbər oradadır. Heç kimi diqqətdən kənarda saxlamır. Ehtiyacı olan hər kəsin qəlb aləminə şirin və duyğulu sözləri ilə qonaq ola bilir. Kimin başı ağrıyırsa və hansı səbəbdən ağrıyırsa bunu da Ələkbər yaxşı bilir. Elə bu yerdə belə bir qənaət çox doğru olardı.



Adı əzəmətlə səslənən insan olmaq üçün daha nə gərəkdir?!

Dəyərli kitabları ilə mənəvi mühitində böyük oxucu aləmi yarada bilib. Bütün bu məsələlər haqqında geniş söhbət açıldı. Bəli, Ələkbər Zahidovun 65 illik yubiley tədbirində hər kəs ona sonsuz sevgilərini bildirməyə can atırdı.

Düşünürəm ki, insanın ən dəyərli qazancı elə mühitinin sevgisidir. İnsan mühitinin sevgisini duyanda, daha da qürurlu və yenilməz olur.

Bu gün Azərbaycan ziyalısının xüsusi diqqətə və qayğı-



ya, əsasən, mənəvi cəhətdən ehtiyacı var. Çox yaxşı haldır ki, Neftçalada bunun müsbət təzahürünü gördük. Neftçala rayon İcra Hakimiyyəti başçısı İsmayıl Vəliyev cəmiyyətin mənəvi mühitində fəal iştirak edən Ələkbər Zahidovun 65 illik yubileyinin keçirilməsinə və kitabının təqdimatına xüsusi diqqət və qayğısını əsirgəməmişdi. Tədbir Ə.Zahidovun uzun illər çalışdığı Neftçala şəhər Elton Həbibov adına 4 saylı tam orta məktəbində keçirilirdi. Açılışı məktəbin direktoru Şəfəq Balaşova etdi və sözü AYB üzvü, yazıçı-publisist Ruhəngiz Nəcəfovaya verdi. Hiss olunurdu ki, Ruhəngiz müəllimənin belə tədbirlərin aparılmasında səriştəsi var.

Sonra ardıcıl olaraq dəvət olunan qonaqlar və tədbir iştirakçıları çıxış etdilər. Azərbaycan Yazıçılar Birliyi Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin müdiri, şair-dramaturq, tədqiqatçı Sayman Aruzun, Ali Hərbi Akademiyanın müəllimi professor Aydın Abbasovun, Neftçala rayon Təhsil şöbəsinin müdiri Əjdər Kərimovun, kitabın məsləhətçisi, yazıçı-publisist Aləm Kəngərlinin, “Kredo” qəzetinin baş redaktoru, şair-publisist Əli Rza Xələflinin, şair-ədəbiyyatşünas Sərvaz Hüseynoğlunun, 20 Yanvar əlili, Azadlıq uğrunda mübariz Fərman Hüseynovun, şair



Avdı Qoşqarın, I qrup Qarabağ əlili Əkbər Muradovun, 20 Yanvar İB sədr müavini Mustafa Əliyevin, şairə, filologiya üzrə fəlsəfə doktoru, AYB üzvü Adilə Nəzərin, Neftçalada yaşayan ziyalı Arif Nağıyevin, kitabın redaktoru və tərtibçisi yazıçı-publisist Əlövsət Poladın, Neftçala rayon İcra Hakimiyyətinin nümayəndəsi Fərid Əhmədovun çıxışları maraqla dinlənildi. Məktəbin 4-cü sinif şagirdləri Abdulalı Xədicə və Abdullazadə Nadir AYB üzvü, Türkmən Ədəbiyyatı Yazarlar Birliyinin üzvü, Qızıl Qələm media mükafatı laureatı Gülqədəm Mirzəzadənin kitabda yer almış şeirini səsləndirdilər. Digər məktəblilərin hazırladıqları kompozisiya da alqışlarla qarşılandı.

Yubilyar və “Azadlıq yollarında” kitabının müəllifi Ələkbər Zahidov tədbirin təşkilatlarına, qonaqlara öz təşəkkürünü bildirdi. O, həmçinin qeyd etdi ki, Elman Həbibov adına 4 saylı tam orta məktəbdə mühüm illərdən bəri pedaqoji fəaliyyət göstərməsindən qürur duyur. Çünki bu məktəb Respublikanın adlı-sanlı məktəbləri sırasındadır. Müəllif Neftçala rayon İcra Hakimiyyəti, Neftçala rayon Təhsil şöbəsi, Neftçala şəhər Elton Həbibov adına 4 saylı tam orta məktəb tərəfindən fəxri fərmanla təltif olundu.



...Salnamə davam edir. Yazıçı-publisist Ələkbər Zahidov Neftçalada - doğulub böyüdüyü məkanda yaşamağından məmnundur.

Hər kəs öz həyatının məmnunluq duyduğu məqamları ilə xoşbəxtdir.

**Əli Rza XƏLƏFLİ**
**2019**